**Albert Eynşteyn demişdir ki, əsl alim insanlığı, dostluğu və ziyalılığı əxlaq kodeksinə çevirə biləndir. Binəli müəllim də alimliklə insanlığın harmoniyasını yaradan nadir şəxsiyyətlərdən olmuşdur. Əsası akademik Əşrəf Hüseynov tərəfindən qoyulan və Azərbaycanın görkəmli riyaziyyatçıları Arif Babayev, Valeri Salayev və onların tələbələri tərəfindən inkişaf etdirilən sinqulyar inteqral tənliklər və sinqulyar inteqral operatorlar üzrə Azərbaycan riyaziyyat məktəbinin parlaq nümayəndələrindən biri olan professor Binəli Musayev elmdə nə qədər uca zirvələr fəth etmişdirsə, onu yaxından tanıyan insanlar, tələbələri, yetirmələri arasında da yüksək nüfuza malik olmuşdur.**

# Böyük ürək sahibi, görkəmli alim

Binəli İsa oğlu Musayev 1944-cü il avqustun 15-də Gürcüstan Respublikasının Bolnisi rayonunun Saraçlı kəndində dünyaya gəlmiş, 1961-ci ildə Saraçlı kənd orta məktəbini, 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Mexanika-riyaziyyat fakültəsini bitirmişdir. Yüksək təhsil göstəricilərinə görə Azərbaycan Elmlər Akademiyasına təyinat almış, 1966-cı ildə Kibernetika İnstitutunda əmək fəaliyyətinə başlamışdır.

İstedadlı gənc kimi 1967-ci ildə həmin institutun aspiranturasına qəbul olunmuş, 1971-ci ildə "Hilbert nüvəli qeyri-xətti sinqulyar inteqral tənliklər sistemi üçün kvadratur və iterasiya-interpolyasiya metodlarının əsaslandırılması" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Müdafiədən sonra BDU-da kafedra müdiri olan professor Arif Babayev onu pedaqoji fəaliyyətə dəvət etmiş, Binəli müəllim 1972-ci ildən universitetin Riyazi analiz kafedrasında işləməyə başlamışdır. Əgər 10 illik fasiləni - bir müddət indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetində kafedra müdirliyini və Türkiyədəki müəllimlik fəaliyyətini nəzərə almasaq, o, 1972-ci ildən bütün ömrünü Bakı Dövlət Universitetində elm və təhsilin inkişafına, yeni nəslin yetişməsinə həsr etmişdir. Burada Riyazi analiz kafedrasında assistent, baş müəllim, dosent, professor vəzifələrində çalışmış, böyük kollektivin dərin rəğbətini qazanmışdır. 1989-cu ildə ovaxtkı SSRİ-nin ən böyük riyaziyyat mərkəzlərindən biri hesab edilən A.M.Razmadze adına Tbilisi Riyaziyyat İnstitutunda "Sinqulyar inteqral tənliklər nəzəriyyəsində konstruktiv metodlar" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. 1995-1997-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasında (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) kafedra müdiri, 1997-2005-ci illərdə isə Türkiyə Cümhuriyyətinin Kütahya şəhərindəki



Dumlupınar Universitetində professor kimi çalışmış, 2006-cı ildə yenidən Bakı Dövlət Universitetinə qayıtmışdır.

Professor Binəli Musayev nüfuzlu riyaziyyatçı olmaqla yanaşı, həm də böyük müəllim idi. O, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Türkiyə Cümhuriyyəti Dumlupınar Universitetində uzun illər riyazi analiz, funksional analiz fənləri və bir çox ixtisas kursları üzrə çox yüksək səviyyədə mühazirələr oxumuşdur. Onun mühazirələri bir nəsil Azərbaycan və türk riyaziyyatçılarının formalaşmasında mühüm rol oynamışdır. Türkiyə Respublikasında çalışan zaman çap etdirdiyi "Teori ve çözümlü problemlerle analiz" adlı 4 cildlik dərsliyi hazırda Türkiyə ali məktəblərində tələbələrin ən çox istifadə etdiyi dərsliklərindən biridir. Bu gün Azərbaycan riyaziyyatı dünya alimləri tərəfindən qəbul edilirsə, burada bir sıra istiqamətlər üzrə güclü elmi məktəblər formalaşmışsa, bu işdə şübhəsiz, professor Binəli Musayevin də əməyi vardır.

Onun rəhbərliyi ilə 15-dən artıq namizədlik dissertasiyası müdafiə edilmiş, onlardan üçü sonralar elmlər doktoru elmi dərəcəsi almışdır. Binəli müəllim 100-dən artıq elmi əsərin müəllifidir. Görkəmli alim bir sıra beynəlxalq, ümumittifaq və respublika miqyaslı elmi konfransların iştirakçısı olmuş və məruzələrlə çıxış etmişdir. O, elmi dərəcələr verən bir neçə ixtisaslaşdırılmış elmi şuranın və Azərbaycan Riyaziyyatçılar Cəmiyyəti İdarə Heyətinin üzvü idi. 1995-ci ildə professor Binəli Musayev Kanadada keçirilən Beynəlxalq Riyaziyyat Olimpiadasında iştirak edən və uğur qazanan Azərbaycan komandası heyətinin rəhbəri olmuşdur.

Alimin elmi əsərləri əsasən birölçülü və çoxölçülü sinqulyar inteqralların təqribi hesablanmasına və müxtəlif nüvəli xətti və qeyri-xətti sinqulyar inteqral tənliklərin konstruktiv həllərinin qurulmasına həsr olunmuşdur. Onun elmi tədqiqatlarını şərti olaraq üç qrupa bölə bilərik. Birinci qrupa müxtəlif inteqrallama əyrilərinə və oblastlarına malik fərqli nüvəli sinqulyar inteqralların təqribi hesablanması üçün kvadratur və kubatur düsturları və onların xətalarının hesablanmasını aid edə bilərik. İkinci qrupa Koşi və Hilbert nüvəli xətti sinqulyar inteqral tənliklərin təqribi həlli üçün qurulmuş müxtəlif konstruktiv üsulları və onların əsaslandırılmasını aid etmək olar. Üçüncü qrupa isə müxtəlif mexanika məsələlərinin həlli zamanı yaranan qeyri-xətti sinqulyar inteqrallara aid tədqiqatlar daxildir. Bu işlərdə sıxılmış inikas prinsipi və Nyuton-Kantoroviç üsulları ilə müxtəlif sinif qeyri-xətti sinqulyar inteqral tənliklər təqribi həll olunaraq ardıcıl yaxınlaşmaların dəqiq həllə yığılma sürətləri tapılmışdır.

O, universitetin ictimai həyatında fəallığı ilə seçilən insanlardan olmuşdur. Tələbələrə qayğısını əsirgəməyən, dostlarının, həmkarlarının ən çətin günlərində yanında olan Binəli müəllim fakültə və kafedra tədbirlərində, Riyaziyyatçılar Cəmiyyətinin toplantılarında, ixtisaslaşdırılmış elmi şuraların iclaslarında maraqlı və dəyərli təkliflər irəli sürər, bəyənmədiyi elmi işlərlə bağlı açıq və cəsarətli fikirlər söyləyərdi. Onun bu cəsarəti özünü hər zaman göstərirdi. Ağsaqqallar danışırlar ki, 1975-ci ildə o zamanlar qəbul imtahanlarının gedişinə ciddi nəzarət edən ölkə başçısı Heydər Əliyev universitetə gəlibmiş. Abituriyentlərin yazı işlərini yoxlayanlar arasında Binəli müəllimin də olduğu otağa daxil olan ulu öndər müəllimlərlə bir qədər söhbət edəndən sonra soruşub ki, bəlkə kiminsə mənə sözü var? Belə vaxtlarda sual vermək, ölkə başçısı ilə dialoqa girmək ovaxtkı qaydalar baxımından müəyyən qədər düzgün sayılmasa da, böyük ürək sahibi olan Binəli müəllim cəsarətlə əlini qaldırıb:

- Yoldaş Əliyev, mənim 32 yaşım var. Ailəliyəm, 3 övladım var. Amma hələ də mənzilim yoxdur. Kirayədə yaşayıram. Belə şəraitdə elmlə məşğul olmaq çox çətindir. Xahiş edirəm, mənzil problemimin həllində kömək göstərəsiniz.

Rektorun, ölkənin digər yüksək vəzifəli rəhbər işçilərinin də olduğu bir məqamda dediyi sözün nə qədər problem yarada biləcəyini nəzərə almayan Binəli müəllimin bu fikri Heydər Əliyev tərəfindən təbəssümlə qarşılanıb, Ulu öndər Nyuton, Eynşteyn də daxil olmaqla, bir çox böyük alimlərin normal məişət şəraitləri olmadan elmdə əldə etdikləri yüksək nailiyyətlərdən danışıb. Sonda gülümsəyərək, Sizə də imkan daxilində kömək göstəriləcəkdir, deyib və həqiqətən də bir müddət sonra Binəli müəllimə mənzil verilib. Ancaq onun bu cəsarəti uzun müddət universitetdə ən aktual söhbətlərin mövzusuna çevrilib.

Bununla yanaşı, professor Binəli Musayev çox kövrək qəlbə malik idi, imtahanda istədiyi qiyməti ala bilməyən tələbənin göz yaşlarını görəndə çox tutular, həmin gəncə mütləq kömək etməyə çalışardı. Eyni qayğıkeşliklə istedadlı, ancaq imkanı olmayan tələbələrin qəyyumu idi, onlara heç kəsə bildirmədən əyin-baş almağı, ciblərinə pul qoymağı insanlıq borcu hesab edərdi.

Böyük ürək sahibi, görkəmli riyaziyyatçı, səmimi dost və gözəl insan olan professor Binəli Musayev 2008-ci il aprel ayının 20-də, 64 yaşında Bakıda vəfat etmişdir. Onun unudulmaz xatirəsi minlərlə dostunun, həmkarının, tələbəsinin ürəyində uzun illər yaşayacaqdır.

**Misir MƏRDANOV,**
**Fuad ABDULLAYEV,**
**Rəşid ƏLİYEV,**
**Elnur XƏLİLOV.**